*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 yanvar 2018-ci il № 2 (2218) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır"



Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev xalqımıza Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il təbrikində deyib. Bu inam ordunun döyüş qabiliyyətinə, zabit kadrlarının hazırlığına, əsgərlərin hərbi biliklərə yiyələnmə səviyyəsinə, şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığına inamdır. Bu inam ötən ilin payızında keçirilən irimiqyaslı təlimin nəticələrinə verilən dəyərdir. Bu inam Azərbaycan Ordusunda son dörd ildə həyata keçirilən möhtəşəm islahatlara, islahatların başlıca tərkib hissəsi kimi ordunun ən müasir hərbi texnikalarla, silahlarla təmin edilməsinə, yeni hərbi hissələrin inşasına, əsaslı təmirinə, şəxsi heyətin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığına verilən dəyərdir.

Bu qətiyyətli inam orduya, ordu ilə xalqın birliyinə, torpaqlarımızın işğaldan azad ediləcəyinə, xalqımıza yaxın vaxtlarda Böyük Qələbənin sevincini yaşadacaq dönməz inamdır...

2016-cı ilin aprelində Ermənistan silahlı birləşmələri irimiqyaslı təxribat törətmək istəyəndə, təmas xətti ətrafında əhali üçün ciddi təhlükə yarananda Azərbaycan Ordusu əks-həmlə əməliyyatı keçirdi. Silahlı Qüvvələrimizin bölmələri qısa müddətdə Lələtəpə, Bayraqtəpə kimi mühüm əhəmiyyətli yüksəkliklər də daxil olmaqla, 2 min hektardan artıq ərazini düşməndən azad etdi, daha çox ərazi əməliyyat baxımından Azərbaycan Ordusunun nəzarətinə keçdi. Bu döyüşlər təsdiqlədi ki, Azərbaycan Ordusu yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir. Bu hazırlığın səviyyəsi son irimiqyaslı təlimlərdə də təsdiqləndi. Qətiyyətlə deyirik ki, ordumuz Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə, nəticə etibarı ilə torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Aprel döyüşlərinin qələbə ilə nəticələnməsi əsgər və zabitlərimizin döyüş hazırlığının, qətiyyətinin, cəsarətinin təsdiqi oldu. Bu amilləri diqqətə çatdıran Ali Baş Komandan demişdi: "Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir... Biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik". Bu bəyanat sülh danışıqları baş tutmasa, torpaqlarımızın döyüşlə azad ediləcəyinə zəmanətdir.

Döyüşlər gedəndə gənclərin də, Birinci Qarabağ müharibəsi iştirakçılarının da döyüşlərə qoşulmaq istəyi xalqın iradəsinin, xalqın ordu ilə birliyinin təsdiqi idi. Düşməni bu vəhdət də heyrətləndirmişdi.

Sülh danışıqlarını bu və ya digər bəhanələrlə uzatmağa çalışan Ermənistan, hələ də unutmadığı aprel döyüşlərini, bu döyüşlərdə əsgər və zabitlərinin silahlarını mövqelərdə, səngərlərdə qoyub qaçdığını, Azərbaycan Ordusunun əsgər və zabitlərinin necə qətiyyətlə, cəsarətlə döyüşdüyünü unuda bilməyəcək. Azərbaycan Prezidenti İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının 72-ci sessiyasında çıxışının müddəalarının məntiqi davamı olan "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır" bəyanatının da mahiyyətini anlamalı, döyüşlər olarsa, nə qədər itkiyə məruz qalacağını dərk etməlidir.

Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. Torpağı işğal olunmuş dövlət sülh tərəfdarıdır, işğalçı dövlət bunun tərəfdarı olduğunu rəsmən bildirmir. Azərbaycan Prezidenti sülh danışıqlarının davam etdirilməsini istəyir, Ermənistan rəhbərliyi danışıqlardan yayınmağa, indiki status-kvonu saxlamağa çalışır. Bu, Azərbaycan dövlətçiliyi üçün yolverilməzdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə mövqenin yolverilməz olduğunu qətiyyətlə bildirir: "Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir". Bu qətiyyət birmənalı şəkildə torpaqlarımızın işğaldan azad ediləcəyinə verilən zəmanət, Ermənistana, onun havadarlarına ünvanlanan bəyanatdır.

Prezident İlham Əliyev demişdir: "Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaqdır. Bu bizim məqsədimizdir və biz bu məqsədə doğru irəliləyirik".

"Hər birimiz Vətən üçün bir əsgərik" - azərbaycançılıqdan rişələnən bu amal Azərbaycan vətəndaşlarının yaşam fəlsəfəsi, Ali Baş Komandanın əmri, döyüşlər və Böyük Qələbə - Azərbaycan əsgərinin hərbi xidmət düsturudur!..

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri yeni tədris dövrünə hazırlıq məqsədilə qoşunlar qarşısında tapşırıqlar qoyub

*Yanvarın 6-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birlik, birləşmə komandirləri və digər kateqoriyalardan olan məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımıza təbrikində səsləndirilən fikirləri, eləcə də Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları xüsusi qeyd edən nazir, 2017-ci ildə cəbhə xəttindəki vəziyyətin təhlilini apararaq cari ildə qarşıda duran vəzifələri bir daha şəxsi heyətin diqqətinə çatdırıb.

General-polkovnik Zakir Həsənov yeni tədris dövrünə hazırlıq məqsədilə qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır vəziyyətdə olması, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi, o cümlədən digər istiqamətlərdə komandir və rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
Natiq İSAYEVİNDİR**

# Müdafiə naziri şəxsi heyətlə iş üzrə zabitlər ilə görüşüb

*Azərbaycan Ordusunun döyüş hazırlığı planına əsasən, yanvarın 8-də birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyətlə iş üzrə zabit heyətinin təlim-metodiki toplantısı öz işinə başladı.*





Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək bildirdi ki, bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadi inkişafı təmin edilib, demokratik hüquqi dövlət və ordu quruculuğu sahəsində böyük uğurlar qazanılıb. "Ali Baş Komandanımızın Silahlı Qüvvələr qarşısında qoyduğu mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ordumuzun döyüşə hazırlıq səviyyəsi, döyüş qabiliyyəti və şəxsi heyətin vətənpərvərlik ruhu dinamik surətdə artmaqdadır. Onun nəticəsidir ki, 2017-ci ildə də ordu quruculuğunda görülən işlər öz müsbət nəticəsini verib, həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olub. Səbəbsiz deyil ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində xalqa təbrikində də Azərbaycan Ordusunun döyüş hazırlığını yüksək qiymətləndirdi.

Ali Baş Komandanın uğurlu siyasəti nəticəsində ordu quruculuğu yüksələn xətt üzrə inkişaf etməklə yanaşı, Ermənistan da ciddi zərbələr alır. Belə ki, düşdüyü vəziyyətdən çıxmağa çalışan Ermənistan hakimiyyəti ölkəsini daha da gərgin vəziyyətə sürükləyir. Ermənistan hökuməti orduya əlavə maliyyə ayırmaqla ölkənin sosial tarazlığının pozulmasına, daxili gərginliyin artmasına nail olur".

Nazir çıxışında şəxsi heyətin Vətənə məhəbbət, dövlətə sədaqət ruhunda tərbiyə olunması məsələsinə də toxundu: "Bu gün Azərbaycan Ordusunda vətənpərvərlik tərbiyəsi birinci yerdə durur. Hər bir əsgər, hər bir zabit Vətən uğrunda gözünü qırpmadan canından keçməyə hazır olmalıdır. Hər hansı bir hərbi qulluqçuda vətənpərvərlik hissi yoxdursa, istənilən müasir texnikanın heç bir əhəmiyyəti yoxdur. Bunun üçün şəxsi heyətlə fərdi işə daha çox diqqət yetirilməlidir. Eyni zamanda sağlam hərbi kollektivlərin formalaşması üçün elə bir mühit yaradılmalıdır ki, istər əsgər olsun, istər zabit xidmət etdiyi hərbi hissə ilə fəxr etsin, onun nüfuzunu qaldırmaq naminə əlindən gələni əsirgəməsin. Bunun üçün şəxsi heyətlə iş üzrə komandir müavinlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar bilikli olmalı, öz peşələrinin sirlərinə dərindən yiyələnməli və şəxsi nümunə olmalıdırlar".

"Ümummilli lider Heydər Əliyev deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Hədəfimiz dahi rəhbərin müəyyənləşdirdiyi kimi, azərbaycançılıq, dövlətçilik, torpaqlarımızın işğaldan azad olunması, ordu və xalq birliyini daha da inkişaf etdirməkdir. Aprel döyüşləri bu birliyin bariz sübutudur. Gördüyümüz böyük işləri, həqiqətləri Azərbaycan xalqına çatdırmalıyıq. Atalarımız da yaxşı deyib: "Xalqın gözü tərəzidir." Bizə Ali Baş Komandanımız və xalq qiymət verir".

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev diqqətə çatdırdı ki, ötən illərdə hərbi bölmələrdə mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr işi Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun olaraq təşkil olunub və keçirilib.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev isə çıxışı zamanı hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlıq, hərbi intizamın yüksəldilməsi və digər istiqamətdə planlaşdırılan tədbirlərə toxundu: "İl ərzində hərbi hissələrdə bu istiqamətdə planlı yoxlamalar aparılaraq lazımi işlər görülüb. Bir çox hərbi hissələrdə əyani təbliğat bazası yaradılıb, çoxlu sayda kütləvi-vətənpərvərlik tədbirləri təşkil edilib . "Heydər Əliyev irsini öyrənirik" silsilə məşğələlərində ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti, ordu quruculuğunda onun əvəzedilməz xidmətləri geniş təbliğ edilib. Bununla yanaşı, Müdafiə Nazirliyinin təşkilatçılığı ilə aprel döyüşlərinin ildönümü ilə əlaqədar xalqla ordunun birliyini nümayiş etdirən və hərbi vətənpərvərlik mövzusunda bölgələrdə kütləvi-vətənpərvərlik tədbirləri və yürüşlər keçirilib, həmçinin şəhid olmuş hərbi qulluqçuların anım mərasimləri təşkil edilib. Eyni zamanda "Açıq qapı" günlərində valideynlərin sualları cavablandırılıb, onların xidməti və inzibati binalar, əsgər yataqxanaları və yeməkxanaları ilə tanış olmalarına şərait yaradılıb. Bundan başqa, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsində "Qaynar xətt" fəaliyyətə başlayıb. Qısa müddət ərzində "Qaynar xətt" vasitəsilə daxil olan müraciətlərə baxılıb və operativ şəkildə həll edilib."

İdarə rəisi qeyd etdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıq və göstərişlərinə əsasən hərbi qulluqçularla fərdi tərbiyə işi ötən il ərzində daha da gücləndirilib. "Bu məqsədlə şəxsi heyətlə iş üzrə zabitlərin, psixoloqların səylərinin, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi üçün vacib tədbirlər həyata keçirilib."

General-mayor Rasim Əliyev 2018-ci ildə planlaşdırılan məsələlərə də toxundu: "Bu ilin avqustunda cənab nazirin təsdiq etdiyi plana əsasən seminarın keçirilməsi planlaşdırılır. Qeyd etmək istəyirəm ki, bu il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü və Azərbaycan Ordusunun 100 illik yubileyi olacaqdır. Şübhəsiz ki, bu əlamətdar tarixi tədbirlərin yüksək səviyyədə keçirilməsində, Azərbaycan Ordusunun şəxsi heyətinin bu tədbirlərdə iştirakının təmin edilməsində şəxsi heyət üzrə zabitlərin rolu və məsuliyyəti böyükdür".

Elmi-metodiki toplantıda müxtəlif hərbi hissələrin zabitləri və mütəxəssislər çıxış edərək şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə bağlı fikir və təkliflərini bölüşdülər.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
gizir
Elmar ZEYNALOVUNDUR**

## Ön xətdən reportaj

# “Son nəfəsədək döyüşməyə hazırıq”

*Doğulub boya-başa çatdığın, suyunu içib, nemətini daddığın, acısı ilə kədərlənib, sevinci ilə qanadlanıb uçduğun, yaxşısı ilə öyündüyün yurd - Vətəndir. Bu Vətənin böyük, şərəfli bir adı var - Azərbaycan!*



Doğma Vətənə sevgim hər şeyə - havasından, suyundan, təbiətindən, torpağından, daşından tutmuş insanlarına olan dərin və tükənməz sevgimdir. Vətənin şanlı tarixi keçmişi, indisi və işıqlı gələcəyi hamımız üçün əzizdir. Ölkəmiz asanlıqla bugünkü vəziyyətə gəlib çıxmayıb. Torpaqlarımız zaman-zaman yadelli işğalçılar tərəfindən istila və talanlara məruz qalıb.

Bu gün də Vətənimizin başı üzərindən qara buludlar çəkilmir. Azərbaycanımızın qəlbi Qarabağ dərdi ilə yaralıdır. Lakin bu dərdi çözəcək mətin sərkərdəmiz, qəhrəman oğullarımız vardır. Başda Ali Baş Komandanımız olmaqla cəsur Azərbaycan övladları tezliklə bu Qarabağ yarasını kəsib atacaq, bağrı dəlinən Vətənimizin yarasına əlac qılacaqlar.

Ön xətdə gecə-gündüz demədən mətinliklə Vətən torpaqlarının keşiyində dayanan mərd, cəsur, vətənpərvər oğullarımızın görüşünə gedir, onlarla söhbət edir, qayğıları ilə maraqlanırıq.

Səhər tezdən "N" hərbi hissəsinə gəlib çatırıq. Kapitan Tərlan Güləhmədovla görüşürük. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit son vəziyyət haqqında danışır:

- Bölmələrimiz çətin coğrafi şəraitdə xidmət etsələr də, hərbi qulluqçularımız üçün hər bir şərait yaradılıb. Onların xidmətinə heç bir hava şəraiti maneçilik törətmir. Düşmən atəşkəsi pozmağa çalışsa da, cavab atəşi ilə dərhal susdurulur.

Təcrübəli sürücü, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Yasir Mütəllimovun idarə etdiyi UAZ markalı maşınla hərbi hissədən çıxırıq. Ərazi düzənlik olsa da, yollar çınqıllı, kələ-kötür və sərt döngəlidir. Buna baxmayaraq sürücü maşını məharətlə idarə edərək bizi ünvana yaxınlaşdırır. Mətin övladlarımızın xidmət etdiyi yerlərə yaxınlaşdıqca sevinirəm. Bir azdan onlarla görüşüb söhbətləşəcəm. Təpədə yazılan "Öncə Vətən" sözləri diqqətimi çəkir. Çay daşlarıyla həkk olunmuş bu yazı bir daha təsdiqləyir ki, gənclərimiz hər şeydən öncə Vətən üçün yaşayırlar. Çünki torpaq varsa, yaşayış da var. Bu torpaqları əkib-becərən də, qoruyan da insandır. Bütün gənclər də vaxt yetişəndə Vətən üçün müsəlləh əsgər olurlar.

Nəhayət, mövqeyə daxil oluruq. Gizir Xəqani Cəmilli vəziyyətin sabit olduğunu bildirdi. Gənc gizir bir ilə yaxındır ki, xidmət edir. Əsgəri borcunu "N" hərbi hissəsində atıcı vəzifəsində başa vurduqdan sonra yenidən ordu sıralarına qayıdıb. O, xidmətə ön xətdən başlamağın qürurundan ürəkdolusu danışdı. "Üçrəngli bayrağımızın dalğalandığı hər yerdə xidmət etmək bizim üçün şərəfdir. Lakin düşmənlə üzbəüz mövqelərdə, belə mərd əsgərlərlə Vətən torpaqlarının keşiyində dayanmaq həm ikiqat məsuliyyət, həm də ikiqat qürurdur. Düşmən hansısa təxribata əl atmaq istəsə, layiqli cavabını alacaq. Necə ki, aprel döyüşlərində erməni ordusuna cəsurlarımız layiqli cavab verdilər. Bu tarix yenə də təkrar olunacaq, çünki hər təxribatın qarşısını almağa qadir güclü ordumuz var."

Səngərlər alınmaz qalanı xatırladır. Hündürlüyü təlimata müvafiqdir, səliqəlidir, genişdir...

Düşüncələr məni ağuşuna alır. Axı bu divarın o tayında bizim ata-baba yurdumuz - Laçınımız, Şuşamız, Kəlbəcərimiz, Xocalımız... var. Niyə axı düşmən öz taleyi ilə barışmaq istəmir? Yaxşı bilir ki, Azərbaycan əsgəri nəyin bahasına olursa-olsun, onu tarixi torpaqlarımızdan qovub çıxaracaq. "Növbətçiliyim zamanı heç bir hadisə baş verməyib" sözləri məni fikrimdən ayırır. Qarşımda məğrur baxışlı Vətən övladını görürəm.

Əsgərlə görüşüb ona “Vətən sevgisi bitərmi?” - sualını verirəm. Hələ adını belə öyrənmədiyim gənc maraq dolu baxışlarla mənə baxaraq danışır:

- Getdiyin yol bitər, baxdığın film bitər, hətta insan ömrü də bitər, lakin Vətənə olan məhəbbət, sevgi heç zaman bitməz. Axı biz anamızı son nəfəsimizə qədər sevərik. Vətən də anamızdır.

Bu sözləri deyən əsgər Rəşad Həbibova görə, ön xətdə xidmət etmək Vətənə olan sevgisini daha da artırır.

Müşahidə aparan digər əsgərə yaxınlaşıram. Öyrənirəm ki, əsgər Aslan Aslanzadə



1997-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilli əsgərin dediyi sözlər məni də sevindirir:

- Biz istəmirik ki, qan axıdılsın. Amma düşmən bizim torpaqlarımızdan çəkilməsə, qanımın son damlasına qədər vuruşmağa hazıram.

Döyüş növbəsi dəyişdirilir. Növbəni təhvil verən əsgər heç bir hadisənin baş vermədiyini, ərazidə gözə çarpan dəyişikliyin olmadığını məruzə edir. Bundan sonra yeni döyüş növbətçisi müşahidə postunda öz yerini tutaraq, fikrini bir an belə yayındırmadan əraziyə baxır.

Növbəni yeni təhvil verən əsgərə - Daşqın İsmayılova yaxınlaşıram. Hacıqabul rayonundan xidmətə çağırılıb. O da xidməti dövründə lazımi döyüş vərdişlərini mənimsədiyini vurğulayır. "İlk dəfə növbəyə çıxanda həyəcanlı idim. Çünki Vətən torpaqlarını müdafiə etmək sırası mənə çatmışdı. Vaxt tamam olana qədər gözümü bir an belə düşməndən yayındırmadım. Məsafə yaxın olduğu üçün müşahidəni təyin olunmuş vasitələrlə aparırıq. İndi hər dəfə döyüş növbəsinə çıxanda bir amal haqqında düşünürəm - ulu babalarımızın ruhunun gəzdiyi tarixi torpaqlarımızı düşməndən azad etmək."

Əsgərlərlə görüşüm o qədər səmimi olur ki, havanın qaralmağını hiss edə bilmədim. Onlarla sağollaşıb ayrılanda hamısı tək bir söz deyir: "Vətən bizim anamızdır. Onun uğrunda son nəfəsədək döyüşməyə hazırıq."

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# “Xidmətimiz ikiqat məsuliyyətlidir”

## Sülhməramlılarımız Əfqanıstana yola salınıb

Yanvarın 9-da "N" hərbi hissəsində NATO-nun "Qətiyyətli Dəstək" adlı qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun 70 nəfərdən ibarət növbəti qrupu rotasiya qaydasında Əfqanıstana yola salındı.

Bu münasibətlə keçirilən mərasimdə çıxış edən polkovnik Qədir Nəsibov bildirdi ki, sülhməramlılarımız Kabul şəhərində yerləşən Beynəlxalq Hava Limanının mühafizəsini həyata keçirirlər. "Məlum olduğu kimi, 2017-ci ilin noyabrında Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberq Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə Əfqanıstandakı "Qətiyyətli Dəstək" əməliyyatlarına verdiyi töhfəyə görə təşəkkürünü və Azərbaycanın sülhməramlı kontingentinin artırılması üçün təklifini bildirdi.

Bu məqsədlə Milli Məclis 29 dekabr 2017-ci il tarixdə "Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımlarının Türkiyə



Cümhuriyyəti Silahlı Qüvvələrinin taboru tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında" qərara dəyişikliklər edib.

Azərbaycan sülhməramlı kontingentin sayının artırılması ilə bağlı Müdafiə Nazirliyi tərəfindən müvafiq dövlət qurumları, eləcə də NATO komandanlığı ilə əlaqəli şəkildə prosedurlar yerinə yetirilib.

Beləliklə, beynəlxalq sülhün təmin edilməsi və tərəfdaşlara dəstək məqsədilə 2018-ci ildən etibarən "Qətiyyətli Dəstək" missiyasının müxtəlif qərargahlarında 6 Azərbaycan zabiti, eləcə də 2 hərbi həkim olmaqla sülhməramlılarımızın sayı ümumilikdə 94-dən 120 nəfərədək artırılıb”.

Zabit yola düşən heyətə uğurlar arzulayaraq, onların ölkəmizi layiqincə təmsil edəcəyinə əminliyini ifadə etdi.

Fürsətdən istifadə edib Əfqanıstana yola düşən əsgər və zabitlərimizlə həmsöhbət oluram. Onlar sevincli və qürurlu görünürlər. İlk həmsöhbətim polkovnik-leytenant Teyfur Rüstəmov 2002-ci ildən bu günə qədər sülhməramlı əməliyyatlarda əldə olunan nailiyyətlərdən danışaraq dedi:

- Bilirik ki, qarşımızda duran vəzifə çox mühüm və məsuliyyətlidir. Dünyanın mürəkkəb bir münaqişə bölgəsində xidmət etmək nə qədər çətin olsa da, şərəfli və müqəddəsdir.

Növbəti həmsöhbətim isə sülhməramlı kontingentimizin tərkibində artıq ikinci dəfə Əfqanıstana yola düşən kiçik çavuş Tehran Pirsaatovdur.

- Mühafizəsini təşkil etdiyimiz əraziyə daxil olan maşınlara baxış keçirmək vəzifəsi mənə tapşırılıb, - kiçik çavuş dedi. - Vəzifəmin məsuliyyətini yaxşı dərk edir, öhdəsindən uğurla gələcəyəm. Orada xidmətimizlə, davranışımızla, nizam-intizamımızla, mədəniyyətimizlə Vətənimizi, xalqımızı, dövlətimizi yüksək səviyyədə təmsil edəcəyik. Xidmətimiz ikiqat məsuliyyətlidir. Axı digər dövlətlərin sülhməramlı qüvvələri arasında ölkəmizi lazımi səviyyədə tanıtmalıyıq.

- Nəzarət-buraxılış məntəqəsində yoxlama aparan şəxsi heyətin mühafizəsini təşkil etmək vəzifəsi də mənə tapşırılıb, - deyə başqa bir sülhməramlı əsgər Ceyhun Abbasov söhbətə qoşulur. - Xidmətimi Əfqanıstanda davam etdirməkdən qürurluyam. Əlbəttə, Azərbaycanı, doğma Vətənimizi layiqincə təmsil etmək hər birimizdən böyük məsuliyyət tələb edir.

Xatırladaq ki, Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlanıb və hərbçilərimiz beynəlxalq sülhyaratma missiyasında uğurla xidmət edirlər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Ordu sıralarından ehtiyata buraxılan hərbi qulluqçular təntənəli mərasimlə yola salınıblar

*"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 2017-ci il tarixli sərəncamının icrası ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən birlik, birləşmə və hərbi hissələrdə tədbirlər həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Tərtər şəhərində keçirilən təntənəli yolasalma mərasiminin iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani tədbir iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin təbrikini çatdırıb. Qeyd olunub ki, hazırda respublikanın bütün şəhər və rayonlarının çağırış məntəqələrində Vətən oğullarımız böyük həvəslə hərbi xidmətə yollanırlar. Xidmətini müvəffəqiyyətlə başa vuran gənclərimiz isə mənəvi və fiziki cəhətdən daha da möhkəmlənərək ordu sıralarından ehtiyata buraxılırlar.



Tərtər rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Şabanov ehtiyata buraxılan gənclərə tərtərlilər adından uğurlar arzulayıb. Aprel döyüşlərinin şəhidi Nicat İsgəndərovun atası Bəhruz müəllim hər bir əsgərin timsalında oğlunu gördüyünü və onların tezliklə şəhidlərimizin intiqamını alacağına əminliyini bildirib.

Tərtər şəhər Cümə məscidi dini icmasının sədri Hacı Sadiq Vətən sevgisindən danışıb və ərazilərimizin müdafiəsində xüsusi fərqlənən oğullara mülki həyatda da Vətənə sədaqətlə xidmət edəcəklərinə inandığını deyib.

Polkovnik-leytenant Babək Səmidli artıq hərbi hissəyə gənc əsgərlərin gəldiyini və onların ehtiyata buraxılan hərbçilərin varislik estafetini ləyaqətlə davam etdirəcəklərini qeyd edib.

Vaxtilə hərbi hissədə tabor komandiri kimi xidmət etmiş, müharibə veteranı Pənah Məmmədov Azərbaycan Ordusunun güc və qüdrətindən bütün xalqımız kimi tərtərlilərin də böyük qürur duyduğunu vurğulayıb və hər an Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bəyan edib.

Ehtiyata buraxılan hərbi qulluqçular adından əsgər Vaqif Qarayev silah, dəmir dəbilqə və zirehli gödəkçəsini estafet rəmzi olaraq gənc əsgər Xəyyam Quluzadəyə təqdim edib. Gənc əsgər bu estafeti şərəflə davam etdirəcəyinə və xalqımıza böyük qələbə sevincini yaşadacaqlarına and içib.

Əsgərlərə hədiyyələr və fəxri fərmanlar təqdim edildikdən sonra mərasim Tərtər rayon mədəniyyət işçilərinin təşkil etdiyi mədəni-kütləvi proqramla davam edib.

* * *

Ordudan ehtiyata buraxılan hərbi qulluqçular üçün Horadiz şəhərində keçirilən təntənəli yolasalma mərasiminin iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Nazirliyin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani tədbir iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin təbrikini çatdırıb. Bildirib ki, yanvarın 1-dən başlayaraq ölkədə həm gənclərin müddətli həqiqi hərbi xidmətə çağırılması, həm də müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması təntənəli şəkildə qeyd edilir. Respublikanın bütün şəhər və rayonlarının çağırış məntəqələrində gənclər hərbi xidmətə böyük ruh yüksəkliyi ilə yollanırlar.

Füzuli rayon İcra Hakimiyyətinin şöbə müdiri Qənimət Əliyev xidməti başa vuran gənclərə uğurlar arzulayıb, ordu quruculuğundakı nailiyyətlərdən, füzulililərin daim əsgərlərin yanında olmasından, ordu ilə xalqın birliyindən danışıb.



Polkovnik Elşad Əbilov ehtiyata buraxılan hərbi qulluqçuları və gənc əsgərləri təbrik edib. Bildirib ki, cəbhə bölgəsində xidmət etmək böyük şərəfdir. Ordu sıralarından ehtiyata buraxılan gənclər cəbhə bölgəsində xidmət etməklə həm mənəvi, həm də fiziki cəhətdən daha da möhkəmlənirlər.

Azərbaycan Ordusunun düşmənin bütün təxribatlarının qarşısını qətiyyətlə aldığını, torpaqlarımızın və xalqımızın müdafiəsində əzmlə dayandığını deyən E.Əbilov əminliklə qeyd edib ki, bu gün Lələtəpədə dalğalanan üçrəngli bayrağımız tezliklə Şuşada, Xankəndində və hazırda işğal altında olan digər şəhər və kəndlərimizdə də ucaldılacaq.

Qarabağ müharibəsi qazisi Əlizadə Abbasov və 1994-cü ildə uğurlu Horadiz əməliyyatının iştirakçısı Şakir Bayramov xidməti başa vuran hərbi qulluqçulara Vətənə şərəflə xidmət etdikləri üçün təşəkkür edib, ölkəmiz üçün layiqli vətəndaş olmağı, gənc əsgərlərə isə Silahlı Qüvvələrimizin döyüş salnaməsinə parlaq səhifələr yazmağı, xalqımıza qələbə sevincini yaşatmağı arzulayıblar.

Yeni Azərbaycan Partiyası Füzuli rayon təşkilatı Gənclər Birliyinin sədri Tural Nəbiyev Azərbaycan Ordusu ilə fəxr etdiyini bildirib, füzulili gənclərin işğal altındakı torpaqlarımızın azadlığı uğrunda hər an Ali Baş Komandanın əmri ilə savaşa hazır olduqlarını bəyan edib.



Sonra ehtiyata buraxılan hərbi qulluqçular adından əsgər Kənan Vəliyev silah, dəmir dəbilqə və zirehli gödəkcəsini estafet rəmzi olaraq gənc əsgər Rüfət Cəbrayılova təqdim edib. Gənc əsgər bu estafeti uğurla davam etdirəcəyinə, Vətənə şərəflə xidmət edəcəyinə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacağına söz verib.

Xidməti başa vuran hərbi qulluqçulara fəxri fərman, Abdulla Qurbaninin müəllifi olduğu "Çingiz dastanı" və "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kitabları, valideynlərə təşəkkür məktubu təqdim edilib.

Tədbir konsert proqramı ilə başa çatıb.

*Tibb xidməti*

# Həkimin qayğısı, səmimiyyəti də müalicə vasitəsidir



"N" hərbi hissəsində gənc əsgərlərin hazırlığı uğurla davam edir. Yüksək döyüş hazırlıqlı əsgərin formalaşması da elə bu mərhələdən başlanır. Şübhəsiz, gənclərin hərbi bilik və vərdişlərə dərindən yiyələnməsi üçün hərbi bölmələrin sosial-məişət şəraiti, mənəvi-psixoloji durumu yüksək olmalıdır. Bu gün ordumuzda şəxsi heyətin sağlamlıqlarına da ciddi diqqət yetirilir. Müasir tibbi avadanlıqlarla təchiz olunan və peşəkar həkimlərin çalışdığı tibb məntəqələri bu məqsədlə fəaliyyət göstərir.

Hərbi hissənin tibb məntəqəsində səliqə-sahman, təmizlik göz oxşayır. Qəbul otağında bir neçə əsgər növbə ilə tibbi müayinədən keçir. Tibb xidməti baş leytenantı Vüqar Hüseynovu tanıyıram. Hərbi Tibb Fakültəsinin məzunudur. Baş ağrısından şikayətlənən əsgər Orxan Bayramlının təzyiqini ölçür.

- Sağlamlıq insan üçün ən böyük sərvətdir, - zabit deyir. - Bizə müraciət edən əsgərlərə ilkin müayinə aparılır və qeydiyyata alınır. İki müqəddəs peşənin sahibi - həm hərbçi, həm də həkim kimi gördüyüm işdən qürurlanıram. Son dərəcə məsuliyyətli vəzifədir, çünki Vətəni qoruyan insanların sağlamlığı sənə əmanət edilir. İşimiz təkcə əsgərləri müalicə etmək yox, həm də xəstəliklərə qarşı profilaktik tədbirlər keçirməkdən ibarətdir. Çalışırıq ki, əsgərlərimiz xəstələnməsinlər, narahatlığı olanlar isə tezliklə sağalıb xidmətlərinə davam etsinlər.

Orxan da öz növbəsində göstərilən qayğıdan razılığını bildirir:

- İki gündür burada müalicə alıram. Həkimlər bizə doğmaları kimi, qayğıkeş yanaşırlar. Özümü yaxşı hiss edirəm. Bu gün bölməyə qayıdacağam. Burada çalışan hər kəsə "çox sağ olun" deyirəm ki, bizə yüksək qayğı göstərirlər.

Feldşer gizir Şahin Məmmədov isə əsgər İbrahim Həşimovu müayinə edir. O deyir:

- Bu fəsildə bir çox xəstəlik törədən viruslar sürətlə yayılır. Əsgərləri bu viruslardan qorumaq üçün vaxtaşırı onları müayinədən keçirir, hər birini diqqətdə saxlayırıq. Ana Vətənimizi qoruyan oğulların sağlamlığının keşiyində dayanmaq, doğrudan da, müqəddəs vəzifədir. Onlar torpaqlarımızı qoruyur, biz də onları.

Əsgər İ.Həşimov hərbi xidmətə Oğuz rayonundan çağırılıb.

- Hərbi hissəmiz doğma bir ailədir, - deyir, - keçirilən dərslərdə hərbi biliklər qazanır, silahlardan istifadə etməyi öyrənirik. Yeməyimiz, yatmağımız, geyimimiz qaydasındadır. Gələn gündən hər birimizə təzə fomra verilib. Bunlarla yanaşı, həkimlər də bizə qayğı ilə yanaşır, vaxtaşırı bizi tibbi müayinələrdən keçirir, sağlamlığımızın qeydinə qalırlar.

Sarğı otağında isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Təhminə Hüseynova əsgər Ramin İsgəndərova tibbi xidmət göstərir. O, tibb texnikumunun məzunudur. Beş ilə yaxındır ki, əsgərlərimizə şəfa bəxş edir. Seçdiyi peşəyə sevgi ilə bağlandığını deyir:

- Həkim olmaq uşaqlıq arzum olub. Bir gün mən də ağ xalat geyinməyin arzusu ilə böyümüşəm. Böydükcə hərbçilərə - şərəfli peşənin sahiblərinə xüsusi rəğbətim yaranıb. Tibb texnikumunun sonuncu kursunda oxuyarkən artıq qəti qərara gəlmişdim. Düşməndən bizləri qoruyan mərd oğullara qulluq etməkdən qürurlu iş ola bilməz. Əsgərlərə tibbi yardım göstərməyi həm də özümə mənəvi borc bilirəm.



Növbəti həkimlə rentgen maşınında söhbətləşirəm. Burada əsgərlərin döş qəfəsi, ciyərləri, böyrəkləri və digər nahiyələrinə baxış keçirilir. Tibb xidməti baş leytenantı Pərviz Fazilov əsgər Əmrah Qasımova manitorda döş qəfəsinin şəklini göstərib hər şeyin qaydasında olduğunu deyir. Pərviz də Hərbi Tibb Fakültəsinin məzunudur. Həkimlik peşəsindən söz açan zabit bu sahənin özünəməxsus xüsusiyyətlərindən danışaraq deyir:

- Həkim öz davranışı, təfəkkürü, dünyagörüşü ilə başqalarından fərqlənməli, özünə inam yaratmağı bacarmalıdır. Həkimin xoş sözü, mehribanlığı, qayğıkeşliyi xəstənin vəziyyətinə, bir qayda olaraq, müsbət təsir göstərir. Həkimə inam hissi olmadıqda xəstənin müalicəsi də bəzən səmərəsiz olur. Əsgərlərimizi müayinə və müalicə edərkən bu prinsipi həmişə rəhbər tutur, hər kəsə xüsusi qayğı ilə yanaşır, onlarla səmimi söhbət edirik. Elə ünsiyyət yaradırıq ki, əsgərlər özlərini sərbəst hiss edirlər və narahatlıqlarını bizimlə bölüşürlər.

"Həkimin qayğısı, səmimiyyəti də müalicə vasitəsidir" fikrini bildirən zabit də bütün hərbçilərimiz kimi savaşa hər an hazır olduğunu deyir.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# "Aprel döyüşləri uğurlu Horadiz əməliyyatının davamıdır"

*Aprel döyüşləri uğurlu Horadiz əməliyyatının davamıdır. AZƏRTAC xəbər verir ki, bunu "N" hərbi hissəsinin sabiq komandiri polkovnik Şair Ramaldanov yanvarın 5-də jurnalistlərə müsahibəsində deyib.*

Ş.Ramaldanov bildirib ki, 1994-cü ilin qışında həyata keçirilən Horadiz əməliyyatı Azərbaycan xalqının qürur mənbəyidir. Bu uğurlu əməliyyat ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilib. Ulu Öndərin çağırışından sonra genişmiqyaslı səfərbərlik keçirildi, hərbi hissələr tam komplektləşdirildi və dahi rəhbərin xeyir-duası ilə hücum əməliyyatları təşkil olundu. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə ordumuzda və xalqımızda qələbəyə inam yarandı və bundan ruhlanan döyüşçülərimiz uğurlu hücum əməliyyatları ilə Füzuli rayonunun Horadiz qəsəbəsini və 21 kəndi Ermənistan ordusunun işğalından azad etdi. Ağır itkilər verən düşmən atəşkəs müqaviləsini imzalamağa məcbur oldu.

Ş.Ramaldanov qeyd edib ki, atəşkəsin elan olunması müharibənin bitməsi demək deyil. Amma düşmən hələ də atəşkəs rejimini pozur. Lakin bizim qəhrəman əsgərlərimiz ön xətdə düşmənə layiqli cavab verir, ermənilərin təxribatlarının qarşısını alırlar: "2016-cı ilin aprelində Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həmin istiqamətdə yenidən öz qəhrəmanlığını göstərdi. Düşmən ağır zərbə alaraq yaşayış məntəqələrimiz üçün təhlükə yaradan mövqelərdən geri çəkilməyə məcbur oldu. Bununla da yaşayış məntəqələrimizin təhlükəsizliyi təmin edildi".

Düşmənin ötən ilin aprelində aldığı ağır zərbədən sonra hələ də özünə gəlmədiyini vurğulayan sabiq hərbi hissə komandiri bildirib ki, aprel döyüşləri Azərbaycan əsgərinin gücünü Ermənistan ilə yanaşı, bütün dünyaya göstərdi. Artıq Ermənistan rəhbərliyi müharibə başlayacağı təqdirdə hansı aqibətlə üzləşəcəyini çox yaxşı bilir. Azərbaycan



Silahlı Qüvvələrinin gücündən qorxuya düşən düşmən sosial şəbəkələrdə, mətbuatda öz narahatlığını bildirir. Bu barədə ən əsas narahatlığı Ermənistan ictimaiyyəti, erməni analar keçirirlər. Əgər Azərbaycan öz torpaqlarını hərb yolu ilə işğaldan azad etməli olsa, o zaman düşmən daha çox itkiyə məruz qalacaq.

"Horadiz əməliyyatı Azərbaycan Ordusunun qələbələrinin başlanğıcıdır. Bu uğuların davamı aprel döyüşləridir. İnanıram ki, belə qələbələrimiz bundan sonra da çox olacaq", - deyə Ş.Ramaldanov qeyd edib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***6 yanvar 2018-ci il.***

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2018-ci il üçün birgə fəaliyyət planı imzalanıb. Sənədə əsasən, keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan idarələrdə, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə Azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

***9 yanvar 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 118 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Cəfərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**SUALLAR:**

**1. Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi.**

**2. Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri.**

**Mövzu:** Azərbaycan xalqının istiqlal mübarizəsi və qəhrəmanlıq ənənələri. 20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən, Azərbaycan xalqının milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi zamanı qəhrəmanlıq nümunələri göstərmiş Azərbaycan vətəndaşları haqqında məlumatları özündə əks etdirən kitab materiallarından istifadə etməli, öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almaqla mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

### *Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi*

Azərbaycan xalqı əsrlər boyu öz azadlığı uğrunda qəhrəmanlıqla mücadilə edib, müstəqillik naminə qurbanlar verib. Tarix boyu düşmənlərimiz münbit torpaqlarımızın nemətlərindən bəhrələnmək üçün Vətənimizi istila altında saxlamağa, xalqımızın azadlıq və istiqlaliyyət arzularını boğmağa çalışsalar da, buna nail ola bilməyiblər. Azadlıq qığılcımı zaman-zaman alovlanaraq xalqımızı mübarizəyə səsləyib. Bugünkü azadlığımıza, respublikamızın müstəqilliyə qovuşmasına yol açan, ötən əsrin 80-ci illərinin axırları, 90-cı illərinin əvvəllərində yeni vüsətlə baş qaldıran milli azadlıq mücadiləsi də tarixdir.

1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycanla İran arasında sərhəd dirəklərinin xalq tərəfindən sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Azərbaycanda bütün gücü, möhtəşəmliyi ilə baş qaldıran milli azadlıq hərəkatının ittifaqın imperiya zülmündən əzab çəkən digər xalqları da ayağa qaldıracağından ehtiyatlanan kommunist partiyası rəhbərləri aktiv fəaliyyətə keçməyə qərar verdilər.

Mərkəzi hakimiyyət SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin vasitəsi ilə xalq hərəkatının boğulmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Sumqayıtda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək erməni mənşəli əhalinin "qondarma talanını" təşkil etdi. 1990-cı il yanvarın 13-15-də Dövlət Təhlükəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti verdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Fövqəladə vəziyyətin başlanması gizli saxlanıldı. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00:00-da başlayacağının elan olunmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-də Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ Müdafiə naziri Dmitri Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant hücuma keçdi. Ağır hərbi texnika barrikadaları çox asanlıqla dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahlardan güclü atəşə tuturdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu...

Bakıya yeridilən Sovet qoşunları həmin gecə şəhərin müxtəlif yerlərində 121 nəfəri qətlə yetirdi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. Respublikanın digər yaşayış məntəqələrinə də Sovet ordusunun hücumu nəticəsində o günlərdə ümumilikdə 132 nəfər, o cümlədən 6 rus, 3 yəhudi, 3 tatar öldürüldü, 744 nəfər yaralandı. Həlak olanlardan 123-ü kişi, 5-i qadın, 4-ü isə azyaşlı uşaqlar, yaralananlardan 25-i qadın, 20-si uşaq idi. 400 nəfər həbs olundu, 4 nəfər itkin düşdü.

Qanlı Yanvara etiraz olaraq respublikada 40 günlük ümummilli tətil başlandı. Əli heç yerə çatmayan, öz rəhbərliyi tərəfindən belə ağrısı-acısı duyulmayan xalqın haqq səsinə səs verən, xalqın harayını bütün dünyaya çatdıran o zaman Moskvada DTK-nın nəzarəti altında yaşayan Heydər Əliyev oldu. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır günlərdə xalqla olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu tarixi çıxışın mətni respublikada, bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildilər.

### *Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri*

1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına Sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri və bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət idi. Bu cür cinayətlərin təhqiqi, onların səbəblərinin, nəticələrinin üzə çıxarılması, təşkilatçılarının aşkarlanması məsələsində vaxt amili yoxdur və bunlar vəhşilik, soyqırımı əməllərinin təkrarlanmaması üçün xəbərdarlıq olmalıdır.

Yanvar faciəsinin bir çox səbəbləri var. Bu səbəblər ümumən hansılardır? Əvvəla, mərkəzin Sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi, ikincisi, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi, üçüncüsü, SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, yenidənqurma haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi, dördüncüsü, keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü, beşincisi, o dövrkü Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti.

Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə yalnız bir dəfə, 1995-ci ilin aprelində Türkiyədə səfərdə olarkən "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi" deyə səhvini etiraf etsə də, xalqdan üzr istəmədi.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər ilin 20 Yanvarında onların əziz xatirəsini dərin ehtiramla yad edir.

20 Yanvar qətliamı xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Azərbaycan xalqı öz qürurunu itirmədi, iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar eyni zamanda, qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsində 20 Yanvar faciəsinin özünəməxsus əhəmiyyəti var. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, axıdılmış qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha da birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan tarixində "Qanlı Yanvar" faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı və müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verdi, bu hadisələrin təşkilatçıları olan Mixail Qorbaçovun, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun və başqalarının cəzalandırılması tələb edildi.

20 Yanvar müqəddəs "Şəhid" kəlməsini yenidən bütün tarixi məzmunu ilə dilimizdə canlandırdı. XX əsrin əvvəllərində milli mənliyimiz və müstəqilliyimiz uğrunda şəhid olanların dəfn edildiyi yer, Sovet dövründə Dağüstü park adı ilə əyləncə yerinə çevrilmişdi. Müstəqilliyimiz, milli mənliyimiz, torpaqlarımızın azadlığı uğrunda canını fəda edən Vətən övladlarının dəfn olunduğu bu yer xalqın ziyarətgahına çevrilib. "Şəhidlər xiyabanı" - dünənimizi bu günə, bu günümüzü sabahla birləşdirən, xalqın birliyinin, iradəsinin və qətiyyətinin təsdiqi olan müqəddəs bir məkandır.

2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda, 20 Yanvar meydanında möhtəşəm xatirə kompleksinin ucaldılması da məhz bu məqsədə, acı, lakin şərəfli tarixin xalqın yaddaşında yaşadılmasına xidmət edir.

Bu gün 20 Yanvar faciəsində şəhid olanların xatirəsini hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq 28 il keçib. Müstəqil Azərbaycan Respublikası dünya dövlətlərarası münasibətlər sistemində öz yerini tutmuş, bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir, dönməzdir.

Müstəqilliyimizin ilk illərində - 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı ədalətsiz ərazi iddiası ilə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olundu. Azərbaycanın ərazi bütövlüyü hələ bərpa olunmayıb. Ona görə də 20 Yanvar faciəsinin 28-ci ildönümü ərəfəsində hər bir Azərbaycan vətəndaşı, Azərbaycan Ordusunun hər bir əsgəri, giziri, zabiti bir daha dərk etməlidir ki, şəhidlərimizin qanı bahasına müstəqil olmuş Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması istiqamətində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

2016-cı il aprelin əvvəllərində düşmən təmas xəttində növbəti dəfə təxribatlar törətdi, ön xəttə yaxın yaşayış məntəqələrimizi artilleriya silahlarından atəşə tutdu. Azərbaycan Ordusunun bölmələri düşmənin bu əməllərini cavabsız qoymadı. Əks-hücum tədbirləri nəticəsində işğalçı Ermənistan ordusunun bölmələri xeyli geriyə atıldı, kənd və qəsəbələrimizi təhlükə altında saxlayan yüksəkliklər düşməndən təmizləndi. Bu döyüşlər Azərbaycan Ordusunun qüdrətini dünyaya nümayiş etdirdi.

2018-ci tədris ilinin hazırlıq planına əsasən, hərbi hissələrdə və birləşmələrdə döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlamışdır. Qarşıda şəxsi heyəti gərgin dərs prosesi, çöl məşğələləri, taktiki təlimlər gözləyir. Azərbaycan Ordusunun hərbi qulluqçusunun bu dərslərdə və təlimlərdə əldə etdiyi yüksək nəticələr, hər bir nailiyyət, hər bir uğur bizi Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs mübarizədə qələbəyə daha da yaxınlaşdırır. Müasir döyüşdə ancaq yüksək döyüş hazırlığı, həvalə olunmuş texnikanın və silahların sirlərinə mükəmməl yiyələnmiş, intizamlı, mənəvi-psixoloji və fiziki cəhətdən dözümlü olan əsgər qalib gələ bilər...

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

*Müharibənin, torpaqlarımızın işğalının ağrı-acılarını yaşayanlar "Mən azərbaycanlıyam!" qürurunu fəxrlə yaşadır. Cəmiyyətin mühüm tərkib hissəsi olan orduya münasibətin səviyyəsi həmişə dövlətçiliyə münasibət kimi anlaşılıb. Vətəndaşlıq mövqeyinə söykənən bu münasibət qarşılıqlı inamdır, qarşılıqlı güvəncdir. Belə bir inam, belə bir güvənc Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mühüm amillərdən biri olaraq, yeniyetmələrin, çağırış yaşlı gənclərin vətənpərvərlik duyğularının dövlətçilik baxımından formalaşmasını təmin edir. Orduya sevgi dövlətçiliyə sevgidir...*

# İctimaiyyət və ordu



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiqlədiyi plana müvafiq keçirilən "Xalq ordunun, ordu xalqın dayağı", "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!", "Qarabağa yaz gələcək!", ... kimi kütləvi vətənpərvərlik tədbirləri bu münasibətin dönməzliyini təsdiqləmişdi və hər tədbir əvvəlkinin məntiqi davamı kimi dərk olunmuşdu. Ötən ilin sentyabrında Qazaxda keçirilən "Ordum - qürurum, xalqım - dayağım" kütləvi vətənpərvərlik bayramında on mindən çox iştirakçı "Ordum qürurumdu!" deyirdi, ordumuzu təmsil edən yüzlərlə hərbçi "Xalqım dayağımdı!" deyirdi. Ssenarinin söz yükü də, səslənən şeir parçaları da, şair Barat Vüsalın şeirinin mahiyyəti də ictimaiyyətin (xalqın) orduya, ordunun ictimaiyyətə (xalqa) inamının, güvəncinin təsdiqiydi: xalq ordusuna güvənir, ordu xalqın dayağıdı. Sülh danışıqları baş tutmasa, Vətən sevgisini, Vətən sevgisindən rişələnən bu münasibəti döyüş ruhuna hopduran Azərbaycan əsgəri torpaqlarımızı işğaldan döyüşlə azad edəcək.

İctimai rəy vəzifəsindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq bu və ya digər fərdin rəyi ola bilməz. İctimai rəy xalqın mütləq çoxluğunun rəyidir. "Elin gözü tərəzidi" deyimi var. Bu deyim bütün zamanların yaşarı kəlamı olub. Xalq 1993-cü ilin yayında hakimiyyətdə səbatsızlığı, dövlətçiliyimizin təhlükədə olduğunu gördü - tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtmasını böyük təkidlə tələb etdi. Dövlətçiliyimiz təhlükədən xilas edildi. Bir daha təsdiqləndi ki, "Sel bir olsa, dağ oynadar yerindən", bir daha təsdiqləndi ki, "El bir olsa, zərbi kərən sındırar"...

Ordu ilə ictimaiyyət arasında münasibətlərin nə səviyyədə şəffaf olduğunu Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə keçirilən "Açıq qapı" günü kimi gərəkli tədbirlər də təsdiqləyir. "Açıq qapı" günü, adından da göründüyü kimi, ictimaiyyətin ordu mühiti ilə hərtərəfli tanışlığına şərait yaradır. Həmin gün tədbirə gələnlər əsgərlərə yaradılmış şəraitlə tanış olur, hərbi hissənin səlahiyyətli zabitləri onların suallarını cavablandırır.

Ötən il hərbi hissələrdən birində "Açıq qapı" günündəydim. Gözləyənlərin həyəcanını da duyurdum, narahatlığını da, baxışlarında çırpınan istəyi də. Tədbir ərəfəsində diqqətimi əsgər atasının söhbəti çəkdi: "Qarabağ müharibəsi əliliyəm. Böyük oğlum on il əvvəl xidmət edib, ortancıl oğlum altı. İndi kiçik oğlum hərbi xidmətdədi. O biri oğullarımın xidmət etdiyi dövrdəki şərait hara, bu oğlumun xidmət etdiyi indiki şərait hara? Təbii ki, belə bir ordunun əsgəri olmasıyla oğlum da qürurlanır" - tədbirdən sonra bu məzmunda eşitdiyim çoxsaylı fikirlərə istinadən əsgər atasının dediyi kəlmələri bütün əsgər valideynlərinin timsalında ictimaiyyətin rəyi bildim. Bu qənaətimdə indi də israrlıyam. Tədbir zamanı valideynlər, ictimaiyyətin nümayəndələri, müxtəlif qəzetləri, televiziyaları, saytları təmsil edən jurnalistlər hərbi hissə ilə ətraflı tanış oldular. Necə deyərlər, bağlı qapı qalmadı. Hamı əsgərlərin istifadəsində olan silahları, sursatları gördülər, hərbi hissənin zabitləri onların istismar xüsusiyyətləri, təyinatları ilə bağlı verilən sualları əhatəli cavablandırdılar. Bu, ordu ilə ictimaiyyət arasında münasibətin səviyyəsinin, ordunun ictimaiyyət üçün qapalı olmadığının təsdiqi deyilmi?

Xalq son dörd ildə Azərbaycan Ordusunda həyata keçirilən irimiqyaslı islahatları da görür, onun mahiyyətini də yüksək dəyərləndirir. "TurAz Qartalı-2017" tədbiri başa çatan gün Qarabağ müharibəsi əlili olan qonşumuz Səməd Qasımovla söhbətləşirdik. Qüruru yerə-göyə sığışmırdı:

- Bu uçuşları dost da gördü, düşmən də. Dost sevindi, 2016-cı ilin aprelində gizlin-aşkar niyyətinin beli qırılan, azərbaycanlı şahinlərin nəyə qadir olduğunu görən düşmən işğal etdiyi torpaqlardan çıxmasa, onu nə gözlədiyini dərk etdi...

Səməd kişinin düşüncələri ictimaiyyətin düşündüklərinin eynidi...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən "Bayrağım - varlığım, bəxtiyarlığım" kütləvi vətənpərvərlik tədbirində iştirak edən ictimaiyyət azərbaycançılıq məfkurəsini dəyərləndirdi. Minlərlə iştirakçı Dövlət bayrağımıza sevginin işığında "Varıq, var olacağıq!" deyirdi. Bu səs düşmənlə təmas xəttində döyüş növbətçiliyi aparan əsgərləri də bir boy dikəltmişdi. Onda bir yeniyetmə türk şairi Arif Nihat Asyanın "Bayrağım" şeirini demişdi. Şeirin son misrasını minlər təkrarlamışdı: "Haraya sancılmaq istəsən, söylə, səni oraya sancım". Başqa bir yeniyetmənin "Bayrağımız Şuşada dalğalanmağın təşnəsidi, Şuşada!" harayı meydanı dalğalandırmışdı. Bu kükrəyiş "Böyük Qələbə ərəfəsindəyik!" kimi anlaşıldı. İctimai rəy budur! İctimaiyyətin orduya münasibəti budur: inam, güvənc!..

2016-cı ilin apreli tarixdi.

2016-cı ilin aprelində Azərbaycan Ordusu möhtəşəm qələbə qazandı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bu döyüşlər ordumuzun gücünü, xalqla ordunun dönməz birliyini təsdiqlədi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən kütləvi vətənpərvərlik tədbirlərindən birini xatırlayıram: "Vətən üçün hər birimiz bir əsgərik". Aprel döyüşləri Azərbaycanın hər bir vətəndaşının Vətən üçün əsgər olduğunu - əsgərləşməyə qadir olduğunu da təsdiqlədi. Bu təsdiq ictimaiyyət - ordu münaisbətinin düsturu deyilmi?

Hər şəhid hər birimizin əzizidi. Hər şəhid Müdafiə Nazirliyinin təşkilatçılığıyla dəfn edilir. Ordunun bir əsgərinin şücaəti, qəhrəmanlığı düşüncələrə hopur - yaşadılır. Bu, ictimaiyyətin orduya qədərsiz ehtiramıdı. Bu ehtiram xəlqi, milli-mənəvi dəyərlərdən biri kimi hər birimizin mənəvi borcunu müəyyənləşdirir. Bu borc ictimaiyyət - ordu münasibətinin tərkib hissəsidir.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin təkcə Azərbaycan Ordusunun şəxsi heyətinin deyil, yeniyetmələrin, çağırış yaşlı gənclərin də vətənpərvərlik duyğularının formalaşmasında, bu prosesin məzmun və forma baxımından dərinləşməsində müstəsna fəaliyyəti ictimaiyyət - ordu münasibətinin genişlənməsini təmin edir. Bu idarənin təşkilatçılığı ilə keçirilən tədbirlər azərbaycançılıq məfkurəsinin daha əhatəli və məzmunlu yaşarılığına yönəldilir; ictimaiyyət - ordu münasibətində qarşılıqlı inam, etibar, qarşılıqlı güvənc - fəaliyyətin qayəsi belədir.

İctimai rəyin dövlətçilik baxımından formalaşmasında Kütləvi İnformasiya Vasitələrinin böyük rolu vardır. Faktın (hadisənin) dövlətçilik mövqeyini nəzərə almaqla ictimailəşdirilməsi jurnalistin vətəndaşlıq borcudur; ictimai rəy, müəyyən mənada, ictimailəşdirilən fakt (hadisə) ilə də bağlı olur. 2015-ci ilin avqustundan sonra yaşanılanlardan fərqli olaraq, 2016-cı ilin aprel döyüşlərində Azərbaycan jurnalistikası peşə borcundan daha çox vətəndaşlıq borcunu yerinə yetirdi. Bununla da ictimaiyyət - ordu münasibəti qazanılan qələbənin tərkib hissəsi oldu.

Müharibə hələ başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. Bu baxımdan ictimai rəy də müharibəaparma vasitəsi kimi orduya olduqca həssas münasibət tələb edir. Fikir səsləndirəndə, fikir yazanda dövlətçiliyin nəzərə alınması bu baxımdan zəruridir. Zəruri olduğuna görə vətəndaşlıq səviyyəsində nəzərə alınır...

İctimai rəyə təsir edə biləsi informasiyanın ictimailəşdirilməsi "Mən azərbaycanlıyam! qürurunu yaşama, yaşatma" missiyasına söykənməlidir. Onda ictimaiyyət - ordu münasibəti dövlətçiliyə sədaqətin tərkib hissəsi olur. Bu gün ictimaiyyət - ordu münasibəti ictimai rəyi Mübarizləşdirib (Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov), Çingizləşdirib (Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov). Ona görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə deyir: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır"...

...İctimaiyyət - ordu münasibətinə yanaşma həssaslıq, əsl vətəndaşlıq mövqeyi tələb edir. Unutmayaq ki, ordu müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Ordumuz Ali Baş Komandanın sərkərdəliyi ilə torpaqlarımızı işğaldan azad edəcək!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə Sarıqamış şəhidlərinin xatirəsinə həsr edilən qardan hazırlanan abidənin açılışı olub



Türkiyənin Qars vilayətinin Sarıqamış rayonunda Birinci Dünya müharibəsində bu ərazidə hərbi əməliyyatlar zamanı şəhid olanların xatirəsinə qardan abidə hazırlanıb.

Tələbələr tərəfindən hazırlanan abidə üçün lazım olan qar 10 böyüktutumlu yük avtomaşını ilə daşınıb.

Türkiyənin nəqliyyat, gəmiçilik və kommunikasiya naziri Əhməd Arslan, gənclər və idman naziri Osman Aşkın Bak, yerli inzibati qurumların rəsmiləri ilə yanaşı, ictimaiyyətin nümayəndələri abidənin açılışında iştirak ediblər.

Qeyd edək ki, 1914-cü ilin sonunda Osmanlı dövləti Rusiya imperiyasının hərbi təcavüzünü dəf etmək məqsədilə ölkənin şərqində Sarıqamış əməliyyatına başlayıb. Bölgədəki Allahu-Əkbər dağında şaxtalı hava şəraitində Osmanlı ordusunun çoxlu sayda hərbçisi donaraq həlak olub. Türk xalqına sarsıdıcı zərbə olan bu faciə Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlub olmasının əsas səbəblərindən biri kimi göstərilir.

### Fransada ermənipərəst deputat cəzalandırılıb



Fransa Milli Assambleyasının deputatı, "erməni soyqırımı"nın inkar edilməsinin cinayət hesab olunması ilə bağlı qanun layihəsinin müəllifi Valeri Buaye parlamentdəki köməkçisini səbəbsiz işdən qovduğuna və ona qarşı mənəvi zorakılıq göstərdiyinə görə Eks-an-Provans şəhərinin apellyasiya məhkəməsi tərəfindən cəzalandırılıb.

Məhkəmənin qərarı ilə deputat real və ciddi səbəb olmadan işdən azad etdiyi köməkçisi Mari-Lorans Makaluzoya 37 min avro ödəyəcək. Mari-Lorans Makaluzo dəfələrlə Valeri Buaye tərəfindən mənəvi zorakılığa, təzyiqlərə məruz qaldığını bildirib.

### Türkiyədə PKK-nın böyük cəbbəxanası ələ keçirilib




Türkiyənin təhlükəsizlik qüvvələri ölkənin Haqqari bölgəsində PKK terrorçu təşkilatına qarşı genişmiqyaslı antiterror əməliyyatı keçirib.

PKK terror təşkilatına məxsus içərisində çoxlu sayda silah və sursat, terror məqsədi ilə istifadə olunan zəruri ləvazimatların olduğu böyük anbarlar ələ keçirilib. Bundan başqa, Adana şəhərində terror hazırlığı görən 8 PKK tərəfdarı həbs olunub. Ölkənin Diyarbəkir bölgəsində isə bir sıra dağ kəndində komendant saatı tətbiq olunub.

Yanvarın 8-də PKK tərəfdarlarının Şırnaqda quraşdırdığı əl qumbarasının zərərsizləşdirilməsi zamanı bir hərbçi yaralanıb. Bu bölgədə də təhlükəsizlik tədbirləri gücləndirilib.

### Əfqanıstanda 15 İŞİD silahlısı öldürülüb



Əfqanıstanda İŞİD qruplaşmasının azı 15 silahlısı məhv edilib.

Qruplaşma üzvləri ilə Əfqanıstanın güc strukturları arasında toqquşma zamanı daha 20 silahlı yaralanıb. Atışma ölkənin şərqindəki Kunar vilayətində baş verib. Silahlılar təhlükəsizlik postlarına bazar günü axşam hücum ediblər. Döyüşdə, həmçinin 3 polis əməkdaşı həlak olub, 13-ü yaralanıb.

Xatırladaq ki, son vaxtlar Əfqanıstanda vəziyyət xeyli pisləşib. Bəzi kənd rayonlarında üstünlüyə yiyələnən "Taliban" hərəkatının döyüşçüləri böyük şəhərlər istiqamətində hücumlara başlayıb. Ölkə ərazisində İŞİD terror qruplaşması da aktiv fəaliyyət göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

# Milli Qəhrəman Etibar İsmayılovun xatirəsi anılıb

*Azərbaycanın Milli Qəhrəmanı Etibar İsmayılovun xatirəsi onun adını daşıyan Ağcabədi rayonu Hindarx qəsəbə tam orta məktəbində anılıb.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Milli Qəhrəmanın büstü önünə tər çiçəklər düzərək, xatirəsini yad ediblər.

Etibar İsmayılovun ailə üzvləri, müəllimləri və döyüş dostları anım mərasimində çıxış edərək, onun mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar. Məlumat verilib ki, Etibar Bəylər oğlu İsmayılov 1964-cü ildə Ağcabədi rayonunun Hindarx kəndində anadan olub. 1990-cı ildə könüllü olaraq müdafiə batalyonlarından birinə yazılaraq Vətənimizin müdafiəsində iştirak edib. Bir sıra döyüşlərdə igidliklər göstərib. 1994-cü il yanvarın 4-də Xocavənd rayonunun Nərgiztəpə və Ceyil yüksəkliyi istiqamətindəki əməliyyat onun son döyüşü olur. Mühasirəyə düşən dostlarını xilas etmək üçün əlindəki sonuncu qumbaranı sinəsinə sıxaraq özünü düşmən tankının altına atır və onu ekipajla birlikdə məhv edir.

Elə həmin il Azərbaycan Prezidentinin Fərmanı ilə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bu gün təhsil aldığı Hindarx qəsəbə tam orta məktəbi onun adını daşıyır.

Tədbirdə məktəblilərin ifasında kompozisiya göstərilib.

Mərasim iştirakçıları məktəbdə yaradılan fəxri guşə ilə tanış olduqdan sonra Hindarx qəsəbəsindəki Şəhidlər xiyabanını ziyarət ediblər.

# Yanvarın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna yanvarın 1-dək 88 milyon 8 min 970,18 manat, 212 min 873,88 ABŞ dolları, 9536 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğalçı Ermənistan ordusunda nizamnamədən kənar münasibətlər zəmnində hadisələr artmaqda davam edir.

Bu günlərdə düşmən ordusunda daha bir cinayət hadisəsi baş verib. Sailyan soyadlı hərbi qulluqçu mübahisə etdiyi xidmət yoldaşı tərəfindən avtomatın qundağı ilə döyülüb.

Komandanlıq tərəfindən hadisənin gizlədilməsi məqsədilə üz-gözü göyərən Sailyan əsgər yataqxanasında nəzarətdə saxlanılır.

* * *

Azərbaycanın işğal olunmuş Ağdərə rayonunda, düşmən ordusunun hərbi polisində sürücü kimi xidmət edən Sevek adlı şəxs idarə etdiyi "Priora" markalı xidməti avtomobildə Çartar yaşayış məntəqəsində yaşayan, 1991-ci il təvəllüdlü Marine Melkumyanı cinsi istismar etdiyi zaman saxlanılıb.

Hərbi polisin rəhbərliyi hadisəni ört-basdır etməyə calışsa da. M.Melkumyanın şikayətindən sonra araşdırma başlayıb. Hadisə dekabrın 28-də erməni qadının ad günündə baş verib.

O da bildirilir ki, Ağdərədə yerləşdirilən işğalçı ordunun hərbi hissəsində Marine tibb xidməti zabiti Yegoryan tərəfindən tibbi ekspertizadan keçirilib və fakt öz təsdiqini tapıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## Hərbi texnikalar, silahlar

# "İstiqlal" snayper tüfəngi

"İstiqlal" (İST-14,5 Anti-Material Rifle) snayper tüfəngi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi tərəfindən istehsal edilib və 2008-ci ildə istismara verilib. Həmin ilin noyabrında Pakistanın Karaçi şəhərində keçirilən "IDEAS-2008" hərbi sərgisində nümayiş etdirilib.

Snayper tüfəngi bura toplaşan tamaşaçıların böyük marağına səbəb olub. Bundan başqa "İstiqlal" tüfəngi İstanbul şəhərində keçirilən IX Beynəlxalq Müdafiə Sərgisində (İDEF) nümayiş etdirilib. Bu silah MDB və NATO ölkələrində istehsal edilən silahlardan öz göstəricilərinə görə üstünlük təşkil edir və onları geridə qoyur. Onu dəzgah üzərində də quraşdırmaq olar. Müxtəlif hava şəraitində silahdan asanlıqla istifadə edilir. Silah vasitəsilə zireh dələn, yandırıcı güllələrdən də istifadəsi mümkündür. Snayper tüfəngi əllə doldurulan və uzununa çəkilən çaxmaqlı sxem əsasında hazırlanıb, irikalibrlidir. Optik nişangahla da təchiz edilib. "İstiqlal" silahı yaxın və uzaq məsafədə yerləşən hədəfləri və düşmənin texnika və vasitələrini məhv etmək üçün nəzərdə tutulub. Hədəfi məhvetmə məsafəsi 3 min metrə qədərdir və uzaqda yerləşən beton maneələri deşib keçməyə qadirdir.




Texniki xüsusiyyətlərinə gəldikdə isə onun çəkisi 54 kiloqram təşkil edir. Uzunluğu 2256 mm, lüləsinin uzunluğu isə 1300 millimetrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qəbələ" klubu Gürcüstanda "Dinamo" və "Saburtalo" komandaları ilə qarşılaşacaq



"Qəbələ" futbol klubunun əvəzedicilərdən ibarət komandasının qış fasiləsindəki hazırlıq planı müəyyənləşib.

2017-2018-ci il mövsümünün ilk yarısını lider kimi başa vuran komanda hazırlığına yanvarın 7-də başlayıb. Yanvarın 26-dək davam edəcək hazırlığın ilk mərhələsi Qəbələ və Bakıda olacaq. Baş məşqçi Emin İmaməliyevin yetirmələri bu müddətdə bir neçə yoxlama oyunu keçirəcəklər. Rəqiblər hələ müəyyənləşməyib.

Hazırlıq prosesinin ikinci mərhələsi Gürcüstanda təşkil ediləcək. Əvəzedicilər yanvarın 26-dan fevralın 2-dək qonşu ölkədə toplanışda olacaqlar. "Qəbələ" Gürcüstanda 3 yoxlama oyununda qüvvəsini sınayacaq. Komandamız Tibilisi "Dinamo"su və "Saburtalo"nun əvəzediciləri ilə üz-üzə gələcək. Yoxlama oyunundakı üçüncü rəqibin adı hələ dəqiqləşməyib.

## Şəhriyar Məmmədyarov dünya şahmat tacı uğrunda yarışacaq



Martın 10-dan 28-dək Almaniyanın paytaxtı Berlində keçiriləcək turnirdən sonra norveçli Maqnus Karlsenlə dünya şahmat tacı uğrunda mübarizə aparacaq qrossmeysterin adı məlum olacaq.

14 raunddan ibarət turnirdə dünyanın səkkiz aparıcı qrossmeysteri iştirak edəcək. Dünya vitse-çempionu titulunun sahibi kimi 2018-ci ildə iddiaçılar arasında turnirə vəsiqə almış Sergey Karyakin ilə yanaşı, azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov da yarışda iştirak edəcək. Şahmatçımız FİDE-nin Qran-Pri yarışlarında uğurlarına görə turnirdə iştirak etmək hüququ qazanıb.

2017-ci ildə FİDE-nin ən yüksək orta reytinqinə malik olan amerikalı Fabiano Karuana və Uesli So, FİDE-nin Qran-Pri yarışlarında ikinci yeri tutan rusiyalı Aleksandr Qrişuk, 2017-ci il Dünya kubokunun finalçıları Levon Aronyan və çinli Din Lijen, həmçinin təşkilatçıların namizədi - rusiyalı şahmatçı Vladimir Kramnik də Berlinə gedəcək.

Dünya çempionu titulu uğrunda matç noyabrın 9-dan 28-dək Londonda keçiriləcək.

## "Qarabağ"ın Antalyadakı rəqibləri müəyyənləşib




Ağdamın "Qarabağ" futbol klubu Antalyadakı qış təlim-məşq toplanışı çərçivəsində 6 yoxlama oyunu keçirəcək.

Azərbaycan çempionunun bütün rəqibləri və oyunların keçiriləcəyi vaxt məlum olub.

"Qarabağ" ilk matçında yanvarın 17-də Rusiyanın "Kuban" klubu ilə qarşılaşacaq. Baş məşqçi Qurban Qurbanovun komandası yanvarın 20-də Polşanın "Lexiya", beş gün sonra isə Makedoniyanın "Şkupi" və Ukraynanın "Mariopul" klubları ilə üz-üzə gələcək.

"Qarabağ"ın beşinci sınağı yanvarın 29-da Bosniya və Herseqovinanın "Sarayevo" komandasına qarşı olacaq. Sonuncu yoxlama matçında isə fevralın 3-də Monteneqronun "Mladost" komandası rəqib olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

İstefada olan 1-ci dərəcəli kapitan Quliyev Fərhad Məmməd oğluna 2000-ci ildə verilmiş "Silahlı Qüvvələrin veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 4
Nüsxə 3550